

*Allahverdi Eminov*

# Dünyanın günahını bağışlayan poeziya...

## (R.Rövşənin şeirləri haqqında qeydlər)

**(əvvəli ötən sayımızda)**

**Ədəbiyyata konkret yanaşsaq, poeziyada həyatı təsvir etmək üsülu kəşf sayılır ki, bu risqli yanaşma Lev Tolstoya məxsusdur, lakin insanın təbiəti və bəşəriyyətin mahiyyəti barədə yaranan suallara isə Fyodor Dostoyevski cavab axtarmışdır. Hər iki tezisdə mənəvi və sosial prosesləri şair necə anlayır, yox, necə anladır motivasiyası dayanır, Ramiz Rövşəndən danışıramsa, poetik fikrini qəlbilə, fitri hisslərilə ifadə edir; daha doğrusu, fitri yol insan obrazının fəhmilə, daxili cazibə qüvvəsilə şərtlənir, allahsevərlik nəzərə alınır, bu təsviretmə üsulu - bədii ümumiləşdirmə oxucu şüurunda, bədii təfəkkürdə aydın təsəvvür yaradır, gerçəkliyə estetik münasibəti formalaşdırır, anlayışları emosiyaların poetik paltarına bükür.**

Ramiz Rövşən poeziyasına "fəlsəfəçilik" möhrü altında yanaşmaq istəməzdim, lakin fəlsəfənin ekvivalenti olan hikmətçiliyə, məntiqliyə baxışını gizlətmirəm. Deyək ki, ilk xatırladığım Ölüm anlamı: doğulan və ölən həqiqət! Poeziyada bu, yeni deyil, eləcə də çağdaş şeirimizdə şeirləri oxuyuruq, bizi tutur bir də o cəhətilə - kədərli, həzin, ağrılı sözlərlə rastlaşırıq. Yaxud, həyatdan köçmüş bir doğmanınmı, sənətkarınmı, dostununmu, qonşununmu yoxluğuna kövrəlirsən. Ramiz Rövşənin poetik kəşfi, mənim fikrimcə, ondadır - belə sözlər yoxdur, "qədribilinməyən" ifadələrdir. Lakin şeirin poetikasında hikmətçilik: antropologenezliyi, şirin həyatın qravitasiyası və bunun əksi olan evtanaziyanın təsvirinin yoxluğu, duyğu və düşüncə cərəyanından keçən yaşantı! Hətta hələ də ənənələrdən canını qurtarmayan arxiteplik - folklorda, ədəbi əsərlərdə təkrarlanan obrazların, süjetlimotivlərin yoxluğu! "Ölmək", "Qara paltarlı qadın", "İçindən yıxılan adam" şeirlərini xatırladım, hansı ki, yazılma tarixi çox-çox geriyə qayıdır, bu da mühüm şərtdir ki, oxucu yaddaşına həkk olunmuşdur, dünən oxuduğun şeir sənə "balıq yaddaşı" aşılamır - vur-tut üç saniyə!

Ölüm-büdür, qapının kandarındadır, ağ çanaqlı gözlərilə, iti caynaqları ilə, qabarmış tüklərilə sənin qarşındadır. Şair olsan (olmasan da) acı, sərt, ağrı oyadan sözlər işlədərsən, daha ona "xoş gəldin" deməyəcəksən ki! Amma Ramiz Rövşənə məxsus "həyatı təsviretmə" üsulu - poetik kəşfi - həqiqətlə şeiriyyətin vəhdətindən yaranan bir ölümün gözəlliyi:

**Bulud kimi ölmək bir yaz yağışında,**
**Ümid kimi ölmək bir qız baxışında.**
**Bir yel qanadında yarpaq kimi ölmək**
**Bir qəbir altında torpaq kimi ölmək.**
**Bir gül kimi ölmək bir güldan içində,**
**Bülbül kimi ölmək bir hicran içində.**
**Bir səs kimi ölmək bir kar qulağında**
**Bir söz kimi ölmək bir lal dodağında...**

Misralarda hikmətə bələnmiş fikirlə (fəlsəfi düşüncədən keçə bilmədim) poetik dilin vəhdəti sual doğurdu məndə: nə üçün insanlar qədimlərdən şeirlə danışmışdır? Axı, poetik dilin mənşəyi sadəlik dərsi olmaqla - oxucu düşüncəsində yaranan poetik aləmi yaddaşda təzələməklə başa düşülür, idrak edilir ki, dumanlı hüdudlar aradan qaldırılır və ölümün özündə bir gözəllik çaları duyulur: Axı insanla dirilərin son görüşüdür. Ölən insan nə qədər yaz yağışına sevinmiq - bir qadın hirsi kimi, yarpaqların payızsız ölümünə heyifslənmək, bülbülün kədərindən, hicranından oxusu, bir səsin həsrətində olduğu kar-lal insana çatmaması... Ramiz Rövşən abstraksiyaya qapılmadan (heyf ki şair ola bilməyənlər oxucuları mürəccədliklə aldatmaq yolunu tutublar, amma aldanan özləridir) poetika xətrinə yox, özünün diri sözlərinə daha aydın ifadəlilik və məna vermişdir: ölümün gözəlliyini şeir dililə danışmışdır. Şeirdə praktik dil itmişdir, metaforik, intonasiyalı dil doğulmuşdur, poetik dil itmədi, ölümün ona heyifi gəldi. Ramiz Rövşənə xas poetik dil mənanı özündə ehtiva etməklə onu törədən başlanğıcdan fərqləndi. Praktik deyimindən uzaqlaşmamaqla özünə yeni forma və məzmun tapdı, şübhə doğurmadı, yaxşı mənada mistik örtükdə müqəddəs görkəm aldı və insan əzəmətinə ölümündən sonra da ümidini itirmədi:

**Gündən günə ölmək,**
**Dönə-dönə ölmək.**
**Öldükcə dirilmək,**
**Sonra yenə ölmək.**

Mən Ramiz Rövşənin poeziyasında ölüm fenomenini bir də ona görə gözəlliyə bağladım - bu yanaşmanı universal qəbul etməsin oxucu - şeirlərində intuitiv hisslə emosional fərasətin riyazi dəqiqliyini görsün. Daha bayaq xatırlatdığım şəkildə: müəllifin heç özü də anlaya bilmir nə deyir, kimə söyləyir! Fransız alimi Anri Puankare (XX əsr) riyazi gözəllik hissləri, ədədlərin harmoniyası və həndəsi zəriflik - simmetriya haqqında öz nəzəri mülahizələrini irəli sürdü, eləcə də görkəmli alimimiz Rafiq Əliyev Ramiz Rövşənin poeziyasında belə elementlərdən bəhs etmişdir. Nəticəyə gəlmək olur ki, bu hisslər: xüsusi estetik həssaslıq şairlərə də aiddir. Ona görə ki, poetik yaradıcılıq (poeziya) harmoniyaya əsaslanan gözəllik axtarışıdır, onun üçün ölüm də gözəldir. "Yağış yuyur, gün qurudur" şeirində başlıq bir aksiomdur, müşahidə obyektidir; birmənalıdır, qeyri-müəyyən deyil, şair yozumunda isə eyniliyin və fərqin oyunudur, ölüm obrazının təxəyyüldə (poetik fantaziyada) canlanması, sözlə ifadəsidir: bir fraqment:

**Bu yerləri, bu göyləri**
**Yağış yuyur, gün qurudur.**
**Bu dünyada çox şeyləri**
**Yağış yuyur, gün qurudur -**

müşahidə etdiyimiz gerçəklikdir və adi şüurun qavradığı hadisədir, insanların yanılması deyil, adamların törətdiyi günahların da yanılması deyil, bəlkə də "kabuslardır", ləyaqətsiz "bütlərdir". Şair oxucusunun şüurunu yanılmalardan və təhriflərdən təmizləməyə səy edir və kabusları (günah predmetlərini) aradan qaldırmada israrlıdır. Digər bir fraqment:

**Yağış yuyur, gün qurudur,**
**Gözümüzün yaşını da.**
**Bağrımızın başını da,**
**Qəbrimizin daşını da.**

Sağlam insan düşüncəsinin qənaətidir, insan əgər ağır kədərdən göz ya-



şına məruz qalırsa, bunu adi şüurla dərk edə bilməz, çünki itki elə bir şeydir ki, insan özüylə ilahi arasındakı ziddiyyətləri anlamalıdır və rasionallıqla irasionallığı görməlidir.

Aqil oxucu adi şüur səviyyəsindən kənara çaxmaqla metafizik şüurdan qaçmamalıdır, nəzəri və bədii təfəkkürün qarşılıqlı münasibətləri prizmasından yanaşmalıdır, həqiqəti (ölümü) hissi reallıqdan çıxarmamalıdır, yoxsa poetik fikir nəsrə qurban gedərdi. Üçüncü bir fraqment:

**Gələn nədi, gedən nədi?**
**Bələk nədi, kəfən nədi?**
**Bu dünya öz kefindədi -**
**Yağış yuyur, gün qurudur -**

şairin hikmətli mürəkkəb və polifonik təxəyyül işinin bədii inikasıdır, insanda uzaqgörənlik tərbiyə edir, duyulmuşlar və qavranılmışlar obrazlar qismində yaddaşda saxlanılır.

Əsl poeziyaya məxsus poetik ehtiras (bəzən buna pafos deyilir - yarımçıq qənaətdir) gerçəkliyin özü şeirə olduğu şəkildə tətbiq olunmur, bu zaman şair fantaziyası ilə ötürdüyü poetik informasiya dissonansların musiqidə səsləndiyi kimi, kontrast vasitəsilə ümumi effektə sala bilər, ya da onu gücləndirər. Bütün məqamlarda şair poeziyanın atmosferini və mahiyyətini təşkil edən gözəlliyə biganə qalmır. Bu məqamlara toxunan Edqar Po maraqlı fikir söyləyir ki, gözəlliyi öz səhəm kimi qəbul edərkən özümə sual verdim: hansı intonasiyada o, ən yaxşı ifadəsini tapa bilir? İnsan təcrübəsi bu intonasiyanın kədər olduğunu qəbul edir. Hansı qəbildən olursa-olsun, gözəllik özünün ən ali inkişafında həssas qəlbdə göz yaşı doğurur. Poeziyanın bütün növləri içərisində ən qanunisi kədərdir.

Ramiz Rövşənin "Qara paltarlı qadın" məşhur şeirini bir daha oxudum. Uzaq illərə qayıtdım: kişi-qadın münasibətləri müstəvisində araşdırmalarımı, sorğularımı, səssiz etirafları xatırladım. Dünyaya övlad gətirən Ana həqiqətənmi ömrü boyu əzizlənir, alqışlanırmı? Əzizlənir əri tərəfindən: onun gənc və gözəl bədəninin özü də cəsarətə oxşayır - alim C.Plüskerə məxsusdur. Alqışlanır əri tərəfindən: qadın ərinin timsalında həm sındırmalı olduğu gücü, həm də müdafiə etməli zəifliyi görür - J.Rostan demişdir: Qadın kişiləri - ərləri tərəfindən heç də rəvan, dinc qarşılanmır. Səbəblər var: kişilərin bəzi cavan arvadları hələ ərləri sağ ikən düşünür ki, onların göz yaşını kim silərək - bu sətirlərin müəllifinindir. Ümumi razılıq isə: yaxşı ər kar, yaxşı arvad kor olmalıdır. J.J.Russonun qənaətidir. Ramiz Rövşənin "Qara paltarlı qadın" şeiri məndə belə bir məntiqi assosiasiya oyatdı. Bəli, kişilər müəllif deyən kimi olur - birmənalı:

**Kişilər bir olmur, atam balası,**
**Qorxağı var, igidi var.**
**Amma hər kişinin öləndən sonra**
**Qəbri üstə ağlamağa**
**Bir qara paltarlı gözəl qadına ümidi var.**

Bu qənaəti birmənalı qəbul etməzdim. Hansı ölmüş kişi - ərin qadını olub-keçən səadətli illərini acı göz yaşına qatıb, qara paltarda qəbrinə ayaq basıb ziyarət edirsə...ruhu məzardan boylanır!

Şeir zahirən epik təsir bağışlasa da, onun alt qatında şairin sualları cavab istəyir; bu qarmaqarışıq və dolaşıq dünyada nə qədər süni, əsrlərdən gələn naqislik, xəyanət, unutqanlıq, nankorluq... əmələ gəlmişdir. Hətta pak və gözəl qadın ürəyini sancmışdır. Qan çıxarmaq əvəzinə xoş anlar, dəqiqələr, saatlar bəxş etmişdir. Və unudulmuş sədaqət necə, qalmışmı, yoxsa:

**Sən öləndə kim olacaq gözlərini bağlayan?**
**Qardaşmı olacaq, yadmı olacaq? -**

Yenə şair qadın etibarının, qadın sədaqətinin, qadın vicdanının təəssübünü çəkməyə bilmir. Baxmayaraq ərinin ona verdiyi əzabları hey yaşamışdır. Şeirin də ləyaqətini burda axtarmalıyıq:

**Bu dünyada bəlkə sənə ən çox ağlayan,**
**Ən çox ağlatdığın qadın olacaq?**
**Göz yaşları yuduqca başdaşını**
**Qəbrində qurcalanıb, deyəcəksən, ilahi,**
**İllər boyu ağlatdığım bu qadın**
**Görən necə saxlayıbdır bu qədər göz yaşını?!**

**(ardı növbəti sayımızda)**